**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Pakistan İslam Respublikasının Xaricdə Yaşayan Pakistanlılarla İş və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu**

Bundan sonra ayrılıqda "Tərəf", birlikdə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Pakistan İslam Respublikasının Xaricdə Yaşayan Pakistanlılarla İş və İnsan Resurslarının İnkişafı Nazirliyi,

- iki ölkə arasında əmək, məşğulluq, sosial müdafiə sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

- iki ölkə arasında əməkdaşlıq üçün mövcud potensiala əsaslanaraq,

- Tərəflərin ən qabaqcıl təcrübəsini paylaşmaqla, qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində öz səylərini birləşdirmək qərarını təsdiqləyərək,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər bu Anlaşma Memorandumu əsasında, öz səlahiyyətləri çərçivəsində və Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı əsas sahələr üzrə birgə təşəbbüsləri həyata keçirərək əməkdaşlıq edirlər:

1. əmək, məşğulluq və sosial müdafiə sahələrində müvafiq qanunvericiliyin təkmilləşdirilməsi;
2. işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dair nəzarətin təşkili və təkmilləşdirilməsi;
3. iş yerlərində təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi;
4. peşə risklərinin qiymətləndirilməsində əməyin mühafizəsi laboratoriyasının imkanlarından istifadə olunması;
5. işsiz, işaxtaran şəxslər və sosial müdafiəyə xüsusi ehtiyacı olan əhali qruplarının məşğulluq imkanlarını genişləndirən aktiv əmək bazarı siyasətinin hazırlanması;
6. əmək bazarının tələbatlarına uyğun işsiz və işaxtaran şəxslər üçün peşə hazırlığı;
7. işəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarətin həyata keçirilməsi;

8. işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, peşə standartlarının hazırlanması və tətbiqi;
9. əlilliyi olan şəxslərin tibbi, sosial və məşğulluq problemlərinin həlli ilə əlaqədar məsələlər, əlilliyin qiymətləndirilməsi sistemi, əlilliyi olan şəxslər üçün xüsusi peşə hazırlığı və peşəyönümü proqramlarının hazırlanması və tətbiqi və reabilitasiyanın təşkili də daxil olmaqla əlillik üzrə siyasətinin təkmilləşdirilməsi;
10. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri istənilən digər sahə.

**Maddə 2**

Tərəflər aşağıdakı əməkdaşlıq formaları üzrə razılığa gəlirlər:

1. bu Anlaşma Memorandumunda qeyd edilən sahələrlə bağlı qanunvericilik və müvafiq normativ sənədlərin, informasiya-analitik materialların və elmi tədqiqatların nəticələrinin mübadiləsi;
2. rəhbərlik və mütəxəssis səviyyəsində səfərlərin təşkili;
3. beynəlxalq təşkilatların iştirakı ilə proqram və layihələrin həyata keçirilməsi;
4. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri əməkdaşlığın istənilən digər forması.

**Maddə 3**

Bu Anlaşma Memorandumunun icrası ilə bağlı tələb olunan vəsait Tərəflərin müvafiq il üçün ayrılmış büdcə təxsisatları daxilində və müvafiq qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

Bu Anlaşma Memorandumu çərçivəsində nümayəndə heyəti və mütəxəssislərin səfər xərcləri göndərən Tərəfin hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun olaraq ödənilir.

**Maddə 4**

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı yazılı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan və 7-ci maddənin 1-ci bəndi ilə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən əlavələr edilə bilər.

**Maddə 5**

Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin tərəfdar çıxdıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

**Maddə 6**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə dostcasına həll edilir.

**Maddə 7**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır. Sonradan, Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı şəkildə diplomatik kanallar vasitəsilə bildirmədiyi təqdirdə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Tərəflər başqa cür razılığa gəlmədiyi təqdirdə, bu Anlaşma Memorandumunun qüvvədə olduğu müddətdə həyata keçirilən bütün fəaliyyətlər, onların başa çatmasına qədər onun müddəaları ilə tənzimlənməyə davam edəcəkdir.

Bunun təsdiqi olaraq, Tərəflərin aşağıdakı səlahiyyətli nümayəndələri bu Anlaşma Memorandumunu imzaladılar.

Bakı şəhərində 25 may 2022-ci il tarixində, hər biri Azərbaycan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılıqları yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük verilir.